# Qürur doğuran etiraf

## "Azərbaycan muğam sənətinin beşiyidir..."




**Bakının İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar respublikamızda bir-birindən maraqlı, rəngarəng tədbirlər keçirilir. Bəri başdan deyək ki, bu yaxınlarda başa çatan "Muğam aləmi" Beynəlxalq Festivalı öz möhtəşəmliyi, fəlsəfi siqləti, ictimai mahiyyəti, estetik dəyəri, çağdaş aktuallığı, nəcib məqsəd və qayəsi ilə onların hamısının fövqündə dayanır.**

YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, Milli Məclisin deputatı, ölkənin birinci xanımı Mehriban Əliyevanın Azərbaycan muğamlarının taleyi ilə bağlı həyata keçirdiyi layihələr bir qayda olaraq həmişə yüksək səviyyədə gerçəkləşib yalnız respublikamızda deyil, həm də dünyanın muğam məkanında böyük hadisəyə çevrildiyindən hər birimiz növbəti uğura da imza atılacağına ürəkdən inanırdıq. Xoşbəxtlikdən yenə də ümidlər doğruldu və hesab edirik ki, xaricdən Bakıya təşrif buyuran qonaqların hamısı ölkələrinə çox məmnun qayıtdı. Onların təəssüratlarını oxucularımızla bölüşəcəyik. Hələlik isə möhtəşəm tədbirin gedişi ilə bağlı bəzi məqamlar üzərində dayanmaq istərdik.

Festivala Heydər Əliyev Fondu ilə yanaşı Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Bəstəkarlar İttifaqı təşkilatçılıq edir, Azərbaycan Mədəniyyətinin Dostları Fondu, Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Təhsil Nazirliyi dəstək verirdi.



**Azərbaycanı muğamsız, muğamı Azərbaycansız təsəvvür etmək mümkün deyildir...**

**İlham Əliyev**



"Muğam aləmi" (18-25 mart 2009-cu il) Beynəlxalq Festivalı çərçivəsində iki tədbir keçirildi: Beynəlxalq elmi simpozium və Beynəlxalq muğam müsabiqəsi.

Beynəlxalq elmi simpozium martın 18-də Azərbaycan Tarixi Muzeyində açıldı və 3 gün davam edəcək bu tədbirə Mehriban xanım Əliyeva "Azərbaycan muğamı müasir dünyada" məruzəsi ilə xeyir-dua verdi, iştirakçılara uğur dilədi: "Muğam Azərbaycan xalqına xas olan ən gözəl xüsusiyyətlərin daşıyıcısıdır. Torpağa, köklərə bağlılıq, vətənpərvərlik, ləyaqət hissi, qonaqpərvərlik, xeyirxahlıq, mərhəmət, emosional zənginlik - bütün bunlar muğam fəlsəfəsinin əsasındadır. Odur ki, desəm, muğam gözəlliyin və məhəbbətin rəmzidir - səhv etmərəm. Bildiyiniz kimi, 2003-cü ildə YUNESKO tərəfindən Azərbaycan muğamı bəşəriyyətin qeyri-maddi irsinin siyahısına salınıbdır. Bizim üçün muğam sənətinin tarixinin hər bir səhifəsi, hər anı çox əzizdir, çox doğmadır..."



Simpoziumda 17 ölkədən (Azərbaycan, ABŞ, Kanada, Böyük Britaniya, Çin, Fransa, İran, İtaliya, Kanada, Macarıstan, Niderland, Özbəkistan, Rusiya, Suriya, Tacikistan, Tunis və Türkiyə) 80 məruzə dinlənildi.

Beynəlxalq muğam müsabiqəsi də 3 gün (22-24 mart) çəkdi və Azərbaycan Dövlət Kukla Teatrında keçirildi. Dinləmələrdə Azərbaycan, İran, Misir, Tacikistan, Mərakeş, İraq, Türkiyə, Almaniya və ABŞ-dan 20 gənc xanəndə iştirak etdi.

Münsiflər heyətinin qərarı ilə 7 nəfər mükafatlandırıldı. "Qran-pri" mükafatı Azərbaycanda qaldı. Onu Təyyar Bayramova təqdim etdilər.

Birinci yerə Özbəkistan xanəndəsi Yulduz Tardiyeva,

ikinci yerə İran sənətçisi Məhəmməd Motamadi, üçüncü yerə isə Misirdən gəlmiş Mustafa Səid layiq görüldü.

Mədəniyyət və Turizm Nazirliyinin "Qarabağ şikəstəsi"nin ən yaxşı ifaçısı üçün mükafatı Xurşud İbrahimova (Tacikistan), Bəstəkarlar İttifaqının ən gənc ifaçı üçün mükafatı Arzu Əliyevaya (Azərbaycan), Təhsil Nazirliyinin ən yaxşı müşayiətçilər üçün mükafatı isə tarzən Elçin Həşimov və kamançaçı Elnur Əhmədova (Azərbaycan) verildi.

Festival çərçivəsində maraq doğuran məqamlar çox oldu: müxtəlif dilli ifaçıların repertuarında "Qarabağ şikəstəsi"nin səsləndirilməsi, ustad sənətkarların konsertlərinin təşkili, Opera və Balet Teatrında "Koroğlu", "Leyli və Məcnun", "Aşıq Qərib" operalarının nümayişi, Caz mərkəzində Azərbaycanın caz, Dövlət Muğam Teatrında muğam ifaçılarının çıxışı, Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında Fikrət Əmirovun "Şur", "Gülüstan-Bayatı Şiraz" və "Kürd ovşarı" simfonik muğamlarının təqdimatı və s.

Bunlar bir daha təsdiqlədi ki, Azərbaycan təkcə milli muğamları ilə deyil, simfonik muğamları ilə də dünya musiqisində özünəməxsus zirvədə dayanmaqda haqlıdır.

**Jan Düring (Fransa):** "Heyranlığımı gizlədə bilmirəm. Azərbaycan mənəviyyatının ən böyük dəyərlərindən olan muğamın bəşəriyyətin incisi sayılması bu xalqın böyüklüyündən, qədim tarixə malik olduğundan xəbər verir..."

**Nadira Primatova (Özbəkistan):** "Əfsanəvi muğam festivalını bizə bəxş edənlərə dərin təşəkkürümüzü bildiririk. Biz də muğam ifaçısıyıq. Ancaq sizin ecazkar muğamlarınızı çox sevirik. Simfonik muğamlara heyranlıqla qulaq asdıq. Bunlar misilsiz dərəcədə çox füsunkar və gözəldir..."

**Taha Qərib əl Əlaq (İraq):** "Bakı çox gözəldir və Azərbaycan muğamı dünyaşöhrətlidir..."

**Taofik Himmiçi (Mərakeş):** "Festivalda iştirakdan qürur duyuram. Azərbaycan muğamının insanlarda yaratdığı hiss çox heyrətamizdir..."

**Robert Simms (Kanada):** "Azərbaycan muğamı çox zəngin musiqidir və onun bütün incəliklərini dərinliyinə kimi öyrənmək lazımdır..."

***Diqqətinizə verdiyimiz və hər birimizdə qürur hissi doğuran bu ürək sözləri məmnuniyyətlə dinlədiyimiz, fikrini bölüşdüyümüz, heyrətini paylaşdığımız qonaqların yalnız bir qisminin təəssüratlarıdır. Təbii ki, onların hamısını bir jurnal məqaləsinə sığışdırmaq qeyri-mümkündür. Əslində buna ehtiyac da yoxdur. Onsuz da "Muğam aləmi" Beynəlxalq Festivalı sənətçilər, musiqişünaslar, mütəxəssislər tərəfindən təhlil ediləcək, araşdırılacaq və layiqli qiymətini hələ bundan sonra alacaqdır...***

**● Yaşar VƏLİYEV**

